

Gülayə

***Buracan gəlmişik bəlkə qayıdaq,***
***Bəlkə özümüzdən əvvələ dönək?***
***Çox getdik uzağa, çox aralandıq,***
***Bəlkə... könlümüzün dibinə enək?***

Əslində böyük poeziya elə bu cavabı çox asan görünən, lakin asan görünməsinə baxmayaraq, heç cür cavabı da tapılmayan sualların pünhan dünyasındadı. Bu pünhan dünyanın gizlinlərinə qəribə bir aşinalıq var Nisə Bəyimin könül pıçıltılarında. Bəlkə də o asan olan, ancaq heç cür də verilməsi mümkün olmayan cavabların özüdü onun öz şair qəlbiylə haqq-hesabında araya-ərsəyə gədıqları hər birimizin; mənim, sənin, onun, onların hamımızın məhz öz yaşantılarımızdı, hər birimizə məxsusdu. Heç bu misralar da onun qələminin yazdıqları yox, əslindəı hər bir oxucunun könlündə-gözündə yaşatdıqları aləmin varağa tökülməsidi.

***İndi vaxt bağlıdır***
***ürəyim kimi.***
***Yad gəlir adamlar,***
***adlar gözümə.***
***Məni qəbul etmir düşüncələrim,***
***Sinəm sözə yatmır, canım özümə.***

***Sanki əhvalımın damarı qaçmış,***
***Sanki heç qəlbimin çəkisi yoxmuş.***
***Əllərim, gözlərim qeybə qapanmış,***
***Sanki məndən mənə təklik yoluxmuş.***

***Sanki qəm yüklənir vaxt limanına,***
***Dərd dərdin üstünə biqəfil durur.***
***İndi mən özümdən belə uzaqda,***
***Qarşımda özümə uzaq yol durur.***

Əslində şeirlər, hər hansı nəsr əsəri ilə bağlı mülahizələrə haradasa o şeirin, nəsr əsərinin bir növ geniş oxucu kütlələri üçün tanışlıq mərhələsidi. Bütün təhsələn, yada salmaq cəhdidir ki, bizim poeziyamızda belə gözəl bir şeir örnəyi var, onu oxumaq, havasını hiss etmək, duymaq və yadda saxlamaq lazımdır:

***... Bizim ağrımızı illər götürməz,***
***Qoymaz əlimizi əlinin üstə.***
***Bizi əzizləməz vaxtın nəfəsi,***
***Tutmaz adımızı dilinin üstə.***

***Biz elə dünyayla gendən tanışdıq,***
***Gendən salamlaşdıq, gendən dolaşdıq.***
***Biz elə başdan da qərib kimiydik,***
***Sonra da yıxılıb dərdə bulaşdıq.***

***...Bəlkə daha bəsdi qayıdaq geri,***
***Bəlkə baş götürüb dünyadan gedək?***
***Ömür də bir vəfa qılmadı bizə,***
***Bəlkə ruhumuza bir əlac edək.***

Araya tökülən qəlb yağışlarının kimə nə söyləyib, kimə nə deməsinin dilini Nisə Bəyim yaxşı bilir. O, bir anın dəlitək qısqanclığına hər kəsi, hər şeyi güdaza verənlərin könüldaşıdı. Kimdəsə olan məchul adamla həmsöhbətlikdə özünün halı da heç məchul adamın halından yüngül deyil. Ona görə ki, əsl sevənlər, aşiqlər içindən sürgün olunanlar-

# SÖZÜN NİSƏ BƏYİMİ

lənlər:

***Üstünə duz basıb arzularımın,***
***Yanıq gecələri diri açıram.***
***Mənim günüm yox ki, vaxtın əlindən***
***Qopub öz-özümdən uzaq qaçıram...***

Niyə? Nə səbəbə? Bəlkə ruhumuza bir əlac etmək səbəbindən? Bəlkə "bir az güllərə tökdüyümüz qanımız"ın gerçək ünvanlarda çiçək açmaması xəcalətimiz var, ondandı? Bəlkə "könlümüzün dibinə enmək" qüvvəmiz tükənib, odumuz sönüb?

Nisə Bəyimin şeirlərində hisslə ağılın, dünyagörmüşlüyün, ağılla duyğunun qəribə və eyni zamanda da uyarlı bir harmoniyası var. Hərdən adama elə gəlir ki, onun şeirlərini ayrı-ayrı bəndlər, beytlər halında araşdırmaq, o şeirlərin ümumi ruhunu haradasa yaralayır, onu incidir, bu şeirlər bir tam halında gəlib dünyaya. Ancaq bu şeirlərin ayrı-ayrı məqamlarının havası ömrün müəyyən məqamında təzə bir ovqatıyla yada düşür. Sınmış, çilik-çilik olmuş ayna parçaları kimidi bu beytlər. O sınıq güzgünün bir parasının əks etdirdikləri belədi:

***Qəlbin çırpınırmı həyəcanından,***
***Gizlədə bilirmi əlin üzünü.***
***Bətninin boğulan dərinliyində***
***Yenə yandırırmı dəniz özünü?***

Əsl şair müşahidələrinin poetik ovqatı belədi. Əsl şair nigarançılığıdı ki:

***Dururmu göylərin nizamı yenə,***
***Yenə qoşadırmı gecəylə gündüz?***
***Gözünə içindən bir göz baxırmı,***
***Axırmı başının üstündən ulduz?***

Nisə Bəyim bütün hallarda özünü, ruhunun iç dünyasında yaşayan pünhan duyğularını yazır. Bu, ilk növbədə onun özüdü. Ancaq bütün hallarda onun yaz-



lil və araşdırmalar ilk növbədə yada salmaq, xatırlatmaq məramlıdı. Belə ki, Nisə Bəyimin şeirlərinin əslində heç bir təhlilə, xüsusi şərhə ehtiyacı yoxdur. Ədəbi tənqidin Nisə Bəyimə olan münasibəti daha çox yadasalma mövqeyindədi. Bax, elə bu yazı da. Özü də ilk növbədə araşdırmadan daha çox heyranlıq, sayğı tonunda olan bir münasibıtdı. Mədı. İçindən sürgün olunanların özgə halından, halətindən xəbəri olmaz ki! Belələri öz-özünə yara vurmaq ustası olur. Ömrünün yuxusunu çoxdan itirənlərin halı-haləti Nisə Bəyim poeziyasının cızdığı rəsm əsəri kimidi; hərdən adama elə gəlir ki, bu əsərə gah eləcə baxmaq, gah da oxuyub-oxuyub havasına uçunmaq gərəkdi...